# Azərbaycanın postmünaqişə gündəliyi sülh çağırışlarına əsaslanır

***Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı ədalətli tarixi zəfərdən sonra regionda yaranan reallıqlar qlobal miqyasda qəbul olunur, ölkəmizin suveren hüquqlarına hörmət bəslənilir, həmçinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması, davamlı sülhün əldə edilməsi prosesinə mövcud gerçəkliklər çərçivəsindən yanaşılır.***



Burada diqqətçəkən bir məqam da odur ki, Vətən savaşından sonra regionda yaranan reallığı dəyərləndirən nüfuzlu beynəlxalq qurumların, məsələn, Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksələn xətlə inkişaf edir. Təşkilat dövlətimizin başçısı İlham Əliyevin regional liderliyinə müsbət yanaşır və ölkə rəhbəri ilə yaxın təmaslarını getdikcə gücləndirməklə Cənubi Qafqaz bölgəsində sülh və sabitliyin bərqərar olunmasına ciddi səy göstərir. Bu il aprelin 6-da Avropa İttifaqının (Aİ) səyi ilə yaranan yeni formatın–"Brüssel sülh gündəliyi"nin əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılmasına başlanılması da bunun bariz ifadəsidir.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqlardan irəli gələn sülh çağırışlarına sadiq qalan dövlətimizin başçısı bu gün təkcə sözdə deyil, əməldə də Cənubi Qafqazın lideri kimi çıxış edir və Azərbaycanla yanaşı, bütün bölgə xalqlarının dinc birgəyaşayışına töhfəsini verməyə çalışır.

Prezident İlham Əliyevin İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi diqqət çəkir: "Bizim hər bir qonşu ilə xüsusi ikitərəfli əməkdaşlıq gündəliyimiz var və bu gündəlik bütün qonşularla fərqlidir. Biz hər bir qonşumuzla ədalətli və səmimi davranırıq, heç vaxt vədimizi pozmuruq. Əgər nəyisə deyiriksə, qonşularımız əmin olurlar ki, biz onu edəcəyik. Bizim sözümüzün imzamız qədər qüvvəsi var. Ona görə də bu çətin vəziyyətdə biz nə Rusiyadan, nə də İrandan mövqeyimizlə bağlı hər hansı mesaj almamışıq".

*(ardı 5-ci səhifədə)*

# Azərbaycanın postmünaqişə gündəliyi sülh çağırışlarına əsaslanır

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimizin başçısı həmin müsahibədə Azərbaycanın mövqeyinin çox sadə olduğunu, hər bir dövlətin ərazi bütövlüyünü daim dəstəklədiyini və bunu fundamental mövqe kimi diqqətdə saxladığını bildirib. "Bəli, bu, bizim öz problemimizə əsaslanırdı. Çünki bizim ərazi bütövlüyümüz pozulmuşdu və biz indi ərazi bütövlüyümüzü bərpa etdikdən sonra da bu mövqedəyik. Çünki ölkənin ərazi bütövlüyü zor tətbiq edilərək pozula bilməz, bu, beynəlxalq hüququn pozulmasıdır. Bu mövqe kiminsə xoşuna gələ bilər, kiminsə yox, ancaq onlar bunu nəzərə almalıdırlar. Qısa olaraq demək istəyirəm ki, bizim regional inkişafla bağlı narahatçılıq yaradan heç bir məqamımız yoxdur", - deyə Azərbaycan lideri vurğulayıb.

Azərbaycanın postmünaqişə gündəliyinin sülh çağırışlarına əsaslanmasından söhbət açarkən, ilk növbədə, qeyd etməliyik ki, əvvəlki bütün danışıqlarda olduğu kimi, sonuncu (dördüncü) Brüssel görüşündə də nə Minsk Qrupu formatından, nə də "Dağlıq Qarabağ status"undan danışılmayıb. Təbii ki, Ermənistan baş naziri Nikol Paşinyan tərəfindən də bu barədə fikir səsləndirilməsinə cəsarət edilməyib.

Amma o, İrəvana döndükdən sonra yenə də əvvəlki ritorikasına qayıdıb. Belə ki, N.Paşinyan Qarabağın "müstəqilliyinin" 31 illiyi münasibəti ilə qondarma rejim ünsürlərinə sentyabrın 2-də ünvanladığı müraciətində "status" məsələsini və "Minsk qrupunun fəaliyyətini" qabartmağa çalışıb.

Buradan belə nəticə çıxır ki, erməni baş nazir özünəməxsus siyasət taktikasına sadiq qalaraq, yenə də danışıqları uzatmağa, sülh prosesinə əngəl yaratmağa çalışır. Amma 44 günlük müharibə ilə "Qarabağ münaqişəsi" deyilən bir məsələ qalmadığını, "status" və "Minsk qrupu" anlayışlarının da tarixin arxivinə verildiyini unudur.

İlham Əliyev dəfələrlə bəyan edib ki, bizim heç bir dövlətə, o cümlədən Ermənistana ərazi iddiamız yoxdur və Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamağa hazırdır, rəsmi İrəvanın isə qeyri-konstruktiv hərəkətlərindən əl çəkib, eyni mövqeni bəyan etməsi və rəsmiləşdirməsi kifayətdir. Əvəzində isə Bakının sülh addımına qarşı hər dəfə qeyri-konstruktiv mövqe sergiləyən bir Ermənistan görünür.

İşğalçı bunu bilməlidir ki, Azərbaycana qarşı ərazi iddiasından əl çəkməsə, ərazi bütövlüyünü tanımaq istəməsə, o zaman rəsmi Bakı da Ermənistanın ərazi bütövlüyünü tanımayacaq və güclü tarixi əsaslarla ərazi iddiaları üçün yeni addımları gözdən keçirəcək.

Düşmən yaddan çıxarmamalıdır ki, hələ ötən əsrin 80-ci illərinin sonlarında təcavüzkar siyasəti nəticəsində indiki Ermənistan Respublikası ərazisində yaşamış yüz minlərlə azərbaycanlını öz dədə-baba torpaqlarından didərgin salıb.

Qarşı tərəf, həm də yaxşı bilir ki, Zəngəzur, Göyçə, İrəvan mahalları Azərbaycanın tarixi torpaqlarıdır. Ancaq o, başa düşməlidir ki, haqqı tapdalanan, hüququ əlindən alınan soydaşlarımız doğma el-obasına dönüş haqqını hələ də diqqətdə saxlayır və Ermənistan qarşısında da beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə tələblər irəli sürə bilər.

Prezident İlham Əliyev İtaliyaya sonuncu səfərində Azərbaycanın mövqeyini, Ermənistanla sülhün şərtlərini dünya ictimaiyyətinə bir daha xatırladıb:

**– Hər iki ölkənin ərazi bütövlüyünün tanınması;**

**– qarşılıqlı olaraq hər hansı ərazi iddialarından imtina;**

**– güc tətbiq etməmək və ya güclə hədələməmək;**

**– sərhədlərin delimitasiyası;**

**– kommunikasiyaların açılması.**

Brüsseldə keçirilən sonuncu üçtərəfli görüşdən sonra Aİ Şurasının Prezidenti Şarl Mişel tərəfindən səsləndirilən bəyanat Azərbaycanın Vətən müharibəsində əldə etdiyi parlaq qələbə nəticəsində yaranan yeni reallıqların dünya birliyi tərəfindən qəbul olunduğunun daha bir təsdiqinə çevrildi. Bu, eyni zamanda, Ermənistan və havadarlarının sülh prosesinin ləngidilməsinə baxmayaraq, regional gündəmin dəyişdirilməsinə xidmət edən bütün cəhdlərin, məhz Azərbaycanın prinsipial mövqeyi, uğurlu diplomatik manevrləri nəticəsində iflasa uğradığını göstərdi.

Beləliklə, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Brüssel görüşündən sonra Ermənistan bir ay ərzində hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamağa razı salındı. Bununla da işğalçı ölkə, nəhayət, qeyri-konstruktiv mövqe ilə heç nəyə nail ola bilməyəcəyini, sülhə gəlməkdən başqa yolu qalmadığını dərk etdi.

Yeri gəlmişkən, hazırda Ermənistan ictimaiyyəti də bu ölkədə yaşanan dərin siyasi, sosial-iqtisadi böhrandan çıxmağın yeganə yolunu sülh sazişinin bağlanmasında, hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanımasında, qarşılıqlı olaraq hər hansı ərazi iddialarından imtina olunmasında, sərhədlərin delimitasiyasında və nəhayət, kommunikasiyaların açılmasında görür. Məsələn, Ermənistan Milli Məclisinin "Mülki müqavilə" fraksiyasının deputatı Arsen Torosyan ölkəsinin siyasi dairələrində azərbaycanlılarla uzunmüddətli düşmənçiliyin qızışdırılmasının Ermənistan və ümumiyyətlə, bütün erməni xalqı üçün bir tələ olduğunu bildirir: "Biz düşmənçiliyi qızışdırmamalıyıq. Biz illərdir ki, "Artsax" ideyası ilə yaşayırıq. Halbuki dünyada bir xalqın iki dövlətinin mövcudluğuna heç yerdə rast gəlməmişik... İndi bizə şans verilib – ya böyük partlayışın qurbanı oluruq, ya da münaqişəni həll edirik. Bunun üçün müharibə və hərbi münaqişə içində 30 il yaşayan erməni və Azərbaycan xalqlarının yaralarını müalicə etmək lazımdır. Artıq erməni siyasilərinin ağıllanmaq vaxtıdır..." - deyə erməni deputat qeyd edib.

Bu məqamda erməni dilində yayımlanan "Kinolenta 24" internet televiziyasının təşkil etdiyi telekörpünün iştirakçılarından biri, İrəvan sakini Merinin sözlərini də xatırlatmaq istərdik. Ağlı kəsəndən "Dağlıq Qarabağ" ətrafında gedən rəsmi erməni təbliğatı ilə razılaşmadığını bildirən Meri öz arqumentlərini bu cür əsaslandırır: "Otuz dörd ildir ki, "Qarabağ bizimdir" deyənlərə üzümü tutub bildirirəm ki, danışanda "dünya da bizimdir" deyirsiniz. Lakin bu zaman təəssüf ki, hüquqi cəhətdən sənin olmayan nəyə isə sahiblənmək istəyinizin dünyanın qəbul etmədiyini anlaya bilmirsiniz".

Meri daha sonra qeyd edib ki, özünün olmayan torpaqlara görə kifayət qədər qurbanlar vermiş Ermənistan dövlətinin taleyinə hisslərlə yanaşmaq gələcək qarşısında ən böyük və bağışlanılmaz səhv olar.

Telekörpünün digər iştirakçısı, niderlandlı Nuneyə son zamanlar erməni təbliğat maşınının beynəlxalq ictimaiyyəti manipulyasiya etmək məqsədilə yayılan dezinformasiya barədə məlumat verilir. Telekanalın yaradıcısı Roman Bağdasaryan Laçın, Zabux və Sus ətrafında aparılan söhbətin düzgün təqdim olunmadığını etiraf edərək deyir: "Həmin məsələ məlum 10 noyabr Bəyanatına salınan xüsusi bənddir və Azərbaycan öz üzərinə düşən öhdəliyi yerinə yetirsə də, Ermənistanın icra etməli olduğu vəzifədir. Şübhəsiz ki, Laçın, Zabux və Susda məskunlaşdırılan ailələrin köçürülməsini tələb etmək Azərbaycanın müstəsna hüququdur".

Vaxtilə Laçının və işğal altındakı digər yaşayış məntəqələrinin məskunlaşdırılmasının Ermənistandakı Qarabağ klanının varlanmaq istəyindən irəli gəldiyini deyən R.Bağdasaryan bu prosesin zərurətdən deyil, çirkli pulları yumaq üçün "ən yaxşı vasitə" olduğunu xatırladıb.

Sözügedən telekörpü həqiqətə işıq salmaqla bərabər, onu da göstərir ki, təkcə Ermənistanda yox, harada yaşamasından asılı olmayaraq, "günəş altında yer axtaran" ermənilər arasında da öz ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın haqq işini başa düşənlərin sayı da artmaqdadır.

Dövlətimizin başçısının vurğuladığı kimi, əgər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanarsa və təməl prinsipləri həyata keçirilərsə, onda Cənubi Qafqazda əmin-amanlıq uzunmüddətli və dayanıqlı olacaq. Azərbaycanın elan etdiyi prinsiplər bu bölgənin inkişafını gerçəkləşdirəcək: "Biz Qafqazda sülh gündəliyini təşviq edirik. Hesab edirəm ki, bütün istiqamətlərdə təşəbbüs bizim əlimizdədir. Həmin təşəbbüs sülhə xidmət edir və etməlidir".

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin Vətən müharibəsində parlaq qələbə nəticəsində işğaldan azad edilən ərazilərinin respublikanın ümumi iqtisadiyyatına reinteqrasiyasına, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmasına nail olmaqdır. Bu isə yaxın gələcəkdə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasını, eləcə də Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın bölgə iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsini reallaşdırmaq deməkdir.

Bütün bunlar Azərbaycanın nə qədər sülhsevər bir ölkə olduğunu bir daha dünyaya nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Respublikamız hazırda da bu istiqamətdə real addımlar atır və bölgənin yeni əməkdaşlıq formatının yaradılması məqsədilə infrastruktur layihələrinin icrasını sürətləndirir.

Bütün dünya Prezident İlham Əliyevi sözünə, vədinə sadiq lider kimi tanıyır. Dövlətimizin başçısının qətiyyətini Ermənistan da yaxşı dərk edir. Ona görə də işğalçı ölkə sülh sazişinin imzalanmayacağı təqdirdə Azərbaycanın da Ermənistanın müstəqilliyinin tanınmayacağını dərindən dərk edir. Çünki İlham Əliyevin məğlub ölkəyə ünvanlanan mesajı da bunu deməyə əsas verir: "Əgər Ermənistan təklif edilən 5 prinsip əsasında müzakirələrin keçirilməsini qəbul etməsə, onda Ermənistanın müstəqilliyini tanımadığımızı rəsmən elan edəcəyik. Ermənistan bunun nələrə gətirib çıxaracağını yaxşı başa düşməlidir. Bu, bəlkə də, Ermənistanın son şansıdır!".

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 13 sentyabr.- S.1;5.